# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrində ümumi təhsil müəssisələrinin növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı”nın və “Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalının tətbiq edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət ümumi təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 sentyabr tarixli 793 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrində ümumi təhsil müəssisələrinin növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı” təsdiq edilsin (əlavə olunur).

2. “Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalının tətbiq edilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

3. Bu Qərar 2026-cı il sentyabrın 15-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 26 ” “ oktyabr ” 2026-cı il

№ 357

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 26 ” oktyabr tarixli
357 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalının tətbiq edilməsi

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Dövlət ümumi təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 sentyabr tarixli 793 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və adambaşına maliyyələşdirmə prinsipi əsasında dövlət ümumi təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi, habelə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalının tətbiq edilməsi məsələlərini tənzimləyir.

1.2. Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi nəzərdə tutulan dövlət ümumi təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı əsasında həyata keçirilir.

1.3. Adambaşına maliyyələşdirmə ümumi təhsilin ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsil səviyyələrini əhatə edir.

1.4. Adambaşına maliyyələşdirmə prinsipi 2026/2027-ci tədris ilindən başlayaraq mərhələli şəkildə tətbiq edilir.

1.5. Dövlət ümumi təhsil müəssisələrində 2026/2027-ci tədris ilindən başlayaraq hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına bu Qaydaların 6-cı hissəsinə uyğun olaraq ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalı tətbiq edilir.

1.6. Hər növbəti təqvim ili üçün dövlət büdcəsinin vəsaiti hesabına adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi nəzərdə tutulan dövlət ümumi təhsil müəssisələrinin siyahısı və təhsilalanlarının sayı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən müəyyən edilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **adambaşına maliyyələşdirmə prinsipi** – dövlət ümumi təhsil müəssisələrində təhsillə bağlı xərclərin (Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatının 310000. “Qeyri-maliyyə aktivləri” bölməsinə aid olan xərclər, ümumi təhsildə sərişteəsaslı məzmunun tətbiqi, ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin yaxşılaşdırılması ilə bağlı xərclər, dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması və təminatı xərcləri, kitab alınması ilə bağlı xərclər,

təhsilverənlərin və idarəetmə heyətinin peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı xərclər istisna olmaqla) hər bir təhsilalana düşən illik təhsil xərcləri əsasında müəyyənləşdirilməsi;

2.1.2. **artım əmsalı** – ümumi təhsilin ayrı-ayrı səviyyələrində təhsil xərclərinin intensivliyini əks etdirən və tətbiq edilən əmsal;

2.1.3. **təhsilalan** – dövlət ümumi təhsil müəssisəsində ibtidai təhsil, ümumi orta təhsil və ya tam orta təhsil səviyyəsində təhsil alan şəxs;

2.1.4. **illik təhsil xərclərinin miqdarı** – artım əmsalları tətbiq edilməzdən əvvəl müəssisə növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə müəyyən edilmiş əsas miqdarı.

## 3. Adambaşına maliyyələşdirilmənin həcminin müəyyənləşdirilməsi

3.1. Dövlət ümumi təhsil müəssisəsinə ayrılan illik maliyyələşdirmənin ümumi həcmi hər bir təhsil səviyyəsi üzrə təhsilalanların sayının həmin səviyyə üçün müəyyən edilmiş hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına vurulması və alınan nəticələrin cəmlənməsi yolu ilə müəyyən edilir.

3.2. Beynəlxalq müqavilələrə əsasən Azərbaycan dövlətinin hesabına ümumi təhsil alan əcnəbilər üçün adambaşına illik təhsil xərclərinin hesablanması zamanı beynəlxalq müqavilələrin şərtlərindən asılı olaraq, digər xərclər də nəzərə alınır.

## 4. Maliyyələşdirilməsi nəzərdə tutulan müəssisələrin və təhsilalanların sayının müəyyənləşdirilməsi

4.1. Dövlət ümumi təhsil müəssisələrinin adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi nəzərdə tutulan müəssisələrin siyahısına daxil edilməsi üçün seçim meyarları (o cümlədən təhsilalanların sayı, infrastruktur və maddi-texniki təminat, əhatə olunan təhsil səviyyələri) Nazirlik tərəfindən müəyyən edilir.

4.2. Hər bir dövlət ümumi təhsil müəssisəsi üzrə təhsilalanların sayı müvafiq tədris ilinin əvvəlinə olan faktiki kontingent əsasında müəyyənləşdirilir. Tədris ili ərzində təhsilalanların sayında baş verən dəyişikliklər Nazirliyin müəyyən etdiyi qaydada nəzərə alınır.

## 5. Maliyyələşdirilmənin şərtləri

5.1. Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilmənin şərtləri bu Qaydaların əlavəsində göstərilən Nümunəvi Çərçivə Müqaviləsi əsasında müəyyənləşdirilir.

5.2. Nazirliklə dövlət ümumi təhsil müəssisəsi arasında hər il sentyabrın 15-dək bu Qaydaların əlavəsinə uyğun olaraq Nümunəvi Çərçivə Müqaviləsi imzalanır. Müqavilənin qüvvədə olma müddətinin başa çatmasına 1 (bir) həftə qalmış tərəflərdən heç biri ona xitam verilməsi barədə yazılı təklif təqdim etmirsə, Müqavilənin qüvvəsi növbəti müddət üçün avtomatik olaraq davam etdirilir.

5.3. Bir təhsilalan üçün müəyyən edilmiş xərclər dövlət ümumi təhsil müəssisəsinin təqdim etdiyi müvafiq təsdiqedici sənədlər əsasında bu Qaydaların 5.2-ci bəndində göstərilən tərəflər arasında bağlanılmış müqaviləyə uyğun olaraq, vəsaitin birbaşa dövlət ümumi təhsil müəssisəsinin müvafiq bank və ya xəzinə hesabına köçürülməsi yolu ilə rublər üzrə ödənilir.

5.4. Adambaşına maliyyələşdirilmə müvafiq tədris ilini əhatə edir və növbəti tədris illəri üçün bu Qaydalarla müəyyən olunmuş tələblərlə davam etdirilir.

5.5. Dövlət ümumi təhsil müəssisəsi tərəfindən hər bir təhsilalana çəkilən faktiki illik xərc təsdiq edilmiş illik təhsil xərcinin miqdarından artıq olduğu halda, çatışmayan vəsait həmin təhsil müəssisəsinin büdcədənkənar hesabı, təsisçisi və ya onun tabe olduğu qurum tərəfindən digər mənbələr hesabına ödənilir.

## 6. Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi

6.1. Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə aşağıdakı artım əmsalları tətbiq edilir:

| Ümumi təhsilin səviyyəsi | Artım əmsalı |
|---|---|
| İbtidai təhsil | 1,00 |
| Ümumi orta təhsil | 1,25 |
| Tam orta təhsil | 1,70 |

6.2. Müəssisə üzrə maliyyələşmə hər bir təhsilalan üçün illik təhsil xərclərinin miqdarına müvafiq təhsil səviyyəsi üzrə artım əmsalı tətbiq edilməklə (bir təhsilana düşən təhsil xərclərinin illik miqdarı × artım əmsalı) müəyyən edilir.

## 7. Şəffaflıq, hesabatlılıq və maliyyələşdirilmənin səmərəliliyinə nəzarət

7.1. Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilən dövlət ümumi təhsil müəssisələrində maliyyələşmənin səmərəliliyinə nəzarəti Nazirlik və aidiyyəti dövlət orqanları həyata keçirirlər.

7.2. Hər bir dövlət ümumi təhsil müəssisəsi üzrə ayrılmış vəsaitin həcmi, hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı və vəsaitdən istifadəyə dair ümumiləşdirilmiş məlumatlar hər il Nazirliyin rəsmi internet saytında açıqlanır.

7.3. Adambaşına maliyyələşdirilmənin səmərəliliyi nəticəyönlü monitorinq göstəriciləri (o cümlədən təhsilalanların davamiyyəti, təlim nəticələri və resurslardan istifadənin səmərəliliyi) əsasında qiymətləndirilir. Monitorinq göstəricilərinin siyahısı və qiymətləndirmə metodikası Nazirlik tərəfindən müəyyən edilir.

7.4. Nazirlik adambaşına maliyyələşdirilmə mexanizminin tətbiqinin nəticələri barədə illik hesabatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

“Adambaşına maliyyələşdirmə prinsipi
əsasında maliyyələşdirilməsi həyata
keçirilən dövlət ümumi təhsil müəssisələrinin
dövlət büdcəsindən maliyyələşdirilməsi
və hər bir təhsilalana düşən illik təhsil
xərclərinin miqdarına ümumi təhsilin
ayrı-ayrı səviyyələri üzrə artım əmsalının
tətbiq edilməsi Qaydaları”na

**əlavə**

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə dövlət ümumi təhsil müəssisəsi arasında**

## NÜMUNƏVİ ÇƏRÇİVƏ MÜQAVİLƏSİ

Bakı şəhəri “_____” _____ 20____ il

Bir tərəfdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və digər tərəfdən dövlət ümumi təhsil müəssisəsi _____
_____

(adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı)

birgə “Tərəflər”, ayrı-ayrılıqda isə “Tərəf” adlanmaqla, bu Müqaviləni aşağıdakı şərtlərlə imzaladılar:

### 1. Müqavilənin predmeti

1.1. Bu Müqavilənin predmeti “Dövlət ümumi təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 sentyabr tarixli 793 nömrəli Fərmanına uyğun olaraq, dövlət ümumi təhsil müəssisələrində təhsilin adambaşına maliyyələşdirmə prinsipi əsasında dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi zamanı tərəflər arasında yaranan münasibətlərdir.

1.2. 2026/2027-ci tədris ilindən dövlət ümumi təhsil müəssisələrində təhsilalanlara münasibətdə maliyyələşdirmənin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı və müvafiq artım əmsalları əsasında müəyyən olunur.

### 2. Tərəflərin hüquq və öhdəlikləri

2.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) hər bir təhsilalana düşən illik təhsil xərclərinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən miqdarına və müvafiq səviyyələr üzrə artım əmsallarına uyğun olaraq hesablanmış vəsaiti bu Müqavilənin 3-cü hissəsində nəzərdə tutulmuş qaydada dövlət ümumi təhsil müəssisəsinə ödəməyi öhdəsinə götürür.

2.2. Nazirliyin aşağıdakı hüquqları vardır:

2.2.1. dövlət ümumi təhsil müəssisəsindən bu Müqavilənin tələblərinə riayət edilməsini tələb etmək;

2.2.2. dövlət ümumi təhsil müəssisəsi üzərinə götürdüyü öhdəlikləri tam və ya lazımi qaydada yerinə yetirmədikdə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq tədbirlər görmək.

2.3. Dövlət ümumi təhsil müəssisəsi aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

2.3.1. təhsilalanların təhsilini ümumi təhsilin dövlət standartlarına uyğun təşkil etmək;

2.3.2. ayrılan vəsaitdən yalnız təyinatı üzrə istifadə etmək;

2.3.3. hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarının ödənilməsi üçün zəruri olan sənədləri Nazirliyin tələbi ilə təqdim etmək;

2.3.4. təhsilalanların sayı və kontingentin hərəkəti barədə məlumatları Nazirliyin müəyyən etdiyi qaydada və müddətlərdə təqdim etmək;

2.3.5. tədris ili bitdikdən sonra 20 (iyirmi) iş günü müddətində ayrılmış vəsaitin istifadəsinə və təhsilin nəticələrinə dair hesabatı Nazirliyə təqdim etmək;

2.3.6. bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsini çətinləşdirən və ya mümkünsüz edən hallar haqqında Nazirliyə 5 (beş) iş günü müddətində məlumat vermək.

2.4. Dövlət ümumi təhsil müəssisəsinin Nazirlikdən bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsini tələb etmək hüququ vardır.

## 3. Xərclərin məbləği və ödəniş qaydası

3.1. Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı və ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalları Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə müəyyən edilir.

3.2. Nəzərdə tutulmuş xərclərin maliyyələşdirilməsi Nazirliklə dövlət ümumi təhsil müəssisəsi arasında bağlanılmış bu Müqaviləyə əsasən həyata keçirilir.

3.3. Vəsait dövlət ümumi təhsil müəssisəsinin təqdim etdiyi müvafiq təsdiqedici sənədlər əsasında müəssisənin müvafiq bank və ya xəzinə hesabına köçürülməsi yolu ilə rüblər üzrə ödənilir.

## 4. Qarşısıalınmaz qüvvə

4.1. Qarşısıalınmaz qüvvənin təsirinə Tərəflərin nəzarət edə bilmədikləri, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, əvvəlcədən nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, karantinlər, embarqolar, müvafiq qanunvericilik qərarları və digər hallar aiddir.

4.2. Qarşısıalınmaz hallara istinad edən Tərəf həmin halların yarandığı vaxtdan 10 (on) gün müddətində digər Tərəfi yazılı şəkildə xəbərdar edir və onun tələbinə əsasən səlahiyyətli dövlət orqanı tərəfindən məlumatı təsdiq edən rəsmi sənədi ona təqdim edir. Həmin hallar aradan qaldırıldıqda, dərhal bu barədə digər Tərəf yazılı surətdə məlumatlandırılır.

4.3. Bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti qarşısıalınmaz qüvvənin mövcud olduğu müddət ərzində uzadılır.

## 5. Müqavilənin ləğv edilməsi qaydası

5.1. Tərəflərdən biri üzərinə götürdüyü öhdəlikləri tam və ya lazımi qaydada yerinə yetirmədikdə, digər Tərəf bu Müqaviləni mülki qanunvericiliklə müəyyən edilmiş qaydada ləğv edə bilər.

5.2. Tərəflərdən biri bu Müqaviləni davam etdirməkdən könüllü olaraq imtina etdikdə Müqavilə hər iki Tərəfin razılığı ilə ləğv edilir.

5.3. Bu Müqavilənin ləğv edilməsi tələbi ilə çıxış edən Tərəf digər Tərəfə ləğvetməyə səbəb olmuş halları əsaslandırmaqla yazılı bildiriş göndərir. Tərəflərdən biri bu Müqavilənin ləğv edilməsi tələbinə digər Tərəfin imtina etməsi barədə məlumat aldıqda və ya həmin məlumatda vaxt göstərilmədikdə və 30 (otuz) iş günü müddətində ondan cavab almadıqda, bu Müqavilənin ləğv edilməsi barədə məhkəməyə müraciət edə bilər.

## 6. Mübahisəli məsələlərin həlli

6.1. Tərəflər Müqavilə üzrə öz aralarında yaranmış mübahisəli məsələləri danışıqlar və qarşılıqlı güzəştlər yolu ilə həll etməlidirlər.

6.2. Mübahisəli məsələlərin həlli danışıqlar yolu ilə mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsasən məhkəmə qaydasında həll edilməlidir.

## 7. Tərəflərin məsuliyyəti

Tərəflər bu Müqavilə üzrə öhdəlikləri yerinə yetirmədikdə və ya lazımi səviyyədə yerinə yetirmədikdə, onlar Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## 8. Müqavilədə əlavələr və dəyişikliklər edilməsi

Tərəflər qarşılıqlı razılıq əsasında bu Müqaviləyə müvafiq protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edə bilərlər. Həmin əlavələr və dəyişikliklər bu Müqavilənin ayrılmaz hissəsi hesab edilir.

## 9. Digər şərtlər

9.1. Bu Müqavilə hər iki Tərəfin onu imzaladığı tarixdən qüvvəyə minir. Bu Müqavilənin qüvvədəolma müddəti _____ tarixinədəkdir.

9.2. . Bu Müqavilənin qüvvədə olma müddətinin başa çatmasına 1 (bir) həftə qalmış tərəflərdən heç biri ona xitam verilməsi barədə yazılı təklif təqdim etmirsə, Müqavilənin qüvvəsi növbəti müddət üçün avtomatik olaraq davam etdirilir.

9.3. Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan 2 (iki) nüsxədə tərtib olunmuşdur və 1 (bir) nüsxəsi dövlət ümumi təhsil müəssisəsində, digər nüsxəsi isə Nazirlikdə saxlanılır.

## 10. Tərəflərin rekvizitləri və imzaları

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi**

_____

(səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı)

_____

İmza_____

**Dövlət ümumi təhsil müəssisəsi**

_____

(adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı)

_____

(səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı)

_____

İmza_____

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 26 ” oktyabr tarixli
357 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrində ümumi təhsil müəssisələrinin növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı**

Ümumi təhsil müəssisələrinin ayrı-ayrı növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı aşağıdakı kimi müəyyən edilir:

| **Sıra №-si** | **Ümumi təhsil müəssisələrinin növləri** | **Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla)** |
|---|---|---|
| 1. | Tam orta ümumtəhsil məktəbi | 2000 |
| 2. | Lisey | 2200 |
| 3. | Gimnaziya | 2200 |
| 4. | Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbi | 2500 |
| 5. | İnternat tipli lisey | 3000 |
| 6. | İnternat tipli gimnaziya | 3000 |

**Qeyd**. Bu Sənədə əsasən müəyyən edilmiş məbləğlər baza məbləğlər olub, onlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş “Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalının tətbiq edilməsi Qaydaları”na uyğun olaraq artım əmsalları tətbiq edilir.

_____